# Patent almaq üçün sifarişlərin qəbulu

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında seleksiya nailiyyətlərinə patent və müəlliflik şəhadətnamələrinin verilməsi qaydaları haqqında Əsasnamə" nin (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 19 may tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmişdir. "Azərbaycan Respublikasında seleksiya nailiyyətlərinə patent və müəlliflik şəhadətnamələrinin verilməsi qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 may 2013-cü il tarixli 84 nömrəli qərarı ilə əlavə edilmiş dəyişikliklərlə) 14-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti il ərzində seleksiya nailiyyətlərinə patent almaq üçün sifariş qəbul edir.

Bitkilər və tut ipəkqurdu üzrə sifarişlər il ərzində aşağıdakı müddətdə qəbul edilir:

- payızlıq dənli bitkilər, tut ipəkqurdu, tut ağacları üzrə - 10 dekabrdan gec olmayaraq;
- yazlıq dənli və dənlipaxlalı (çəltikdən başqa), kartof, tərəvəz və bostan bitkiləri, birillik və çoxillik otlar (sorqo bitkisindən başqa), çuğundur və efir yağlı bitkilər üzrə - 15 noyabrdan gec olmayaraq;
- tütün bitkisi üzrə - 1 dekabrdan gec olmayaraq;
- qarğıdalı, çəltik, pambıq və sorqo üzrə - 15 dekabrdan gec olmayaraq;
- meyvə, giləmeyvə, subtropik, üzüm, gül-bəzək və meyvə bitkiləri üzrə - 25 dekabrdan gec olmayaraq.

**Ünvan:**
AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyov küç, Hökumət evi.
Tel: (+99412) 498 73 51; Faks 493 59 41
E-mail: mail@sorttoxumagro.gov.az

Tələb olunan sənədlər barədə məlumatı www.sorttoxumagro.gov.az saytının "Fəaliyyətlər" bölməsinin "Patent almaq üçün tələb olunan sənədlər" yarımbölməsindən əldə edə bilərsiniz.